*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 sentyabr 2018-ci il № 74 (2290) Qiymәti 25 qəpik


# Prezident İlham Əliyev "ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi ilə tanış olub



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Bakı Ekspo Mərkəzində açılan "ADEX-2018" Üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi ilə tanış olub.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Bakı Ekspo Mərkəzində açılan "ADEX-2018" Üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə mərkəzin qarşısında nümayiş etdirilən hərbi məhsullara və texnikalara baxdı.

Müdafiə naziri Zakir Həsənov və Müdafiə Sənayesi nazirinin müavini Yəhya Musayev Prezident İlham Əliyevə məlumat verdilər ki, bu il sərgidə dünyanın 29 ölkəsini təmsil edən 224 şirkət iştirak edir. Regionda ən böyük silah və hərbi texnika ekspozisiyalarından ibarət olan genişmiqyaslı bu tədbir müasir silah və avadanlıqların, Azərbaycanın müdafiə sənayesi kompleksinin gücü və qüdrətinin nümayişi üçün geniş imkanlar açır. Azərbaycanın hərbi sənaye kompleksinin geniş təmsil olunduğu sərgidə "Matador", "Marauder" və digər zirehli hərbi texnikalar, o cümlədən tank əleyhinə raket kompleksi böyük maraqla qarşılanır.

Hava hücumundan müdafiə silahlarının və hərbi texnikaların servis xidməti mərkəzinin stendi ilə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, Azərbaycan-Belarus birgə müəssisəsi əsasən silahlanma sistemlərinin təkmilləşdirilməsi və modelləşdirilməsi, hərbi elmi-tədqiqat işi, yeni silahlanma sistemlərinin inkişafı, qoşun və silahlanmada nəzarət sistemləri üçün texniki və proqram vasitələrinin təminatının hazırlanması ilə məşğuldur.

Belarus Respublikası artıq Azərbaycan Beynəlxalq müdafiə sərgisinin fəal iştirakçıları arasındadır. Sərgiyə 10 şirkətlə qatılan Belarus müxtəlif hərbi məhsullarla yanaşı, ağır hərbi texnika da nümayiş etdirir. "Belspetsvneshtechnika" Dövlət Xarici Ticarət Unitar Müəssisəsi yüksək texnoloji məhsulların ixracı sahəsində ixtisaslaşan, hərbi tətbiqlər üzrə texnologiyalar sahəsində intensiv biliyə malik olan aparıcı müəssisədir.

Türkiyənin "Aselsan" şirkəti də artıq üçüncü dəfədir sərgidə iştirak edir və onun təqdim etdiyi məhsullar da maraqla qarşılanır.

Təkərli zirehli texnikanın istehsalı sahəsində ixtisaslaşan Rusiyanın Hərbi Sənaye Şirkəti isə müdafiə, hüquq-mühafizə və terrora qarşı mübarizə sahələrində silsilə tapşırıqların həllinə görə zirehli texnikaları tədarük etməklə 50-dən çox ölkədə dövlət orqanları ilə və özəl şirkətlərlə əməkdaşlıq edir.

(Ardı 2-ci səhifədə)

## Üçüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin iştirakçılarına

Hörmətli sərgi iştirakçıları və qonaqlar!

Sizi "ADEX-2018" Üçüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin açılışı münasibətilə salamlayıram.

Artıq ənənəvi xarakter almış "ADEX" sərgisi beynəlxalq hərbi-texniki əməkdaşlığın inkişafı, ən müasir silah və texnologiyaların nümayiş etdirilməsi üçün mühüm tədbirə çevrilmişdir. Sərgi dünyanın tanınmış hərbi sənaye müəssisələrini, nüfuzlu xarici şirkət və təşkilatları, o cümlədən rəsmi nümayəndə heyətlərini və mütəxəssisləri eyni məkanda toplayaraq işgüzar əlaqələrin qurulması və yeni müqavilələrin imzalanması üçün səmərəli platformaya çevrilmişdir.

Ərazisinin 20 faizi işğal altında olan Azərbaycan Respublikası müdafiə qabiliyyətinin artırılmasına və silahlı qüvvələrinin maddi-texniki təchizatının gücləndirilməsinə daim xüsusi önəm verir. Azərbaycan hərbi-texniki sahədə dünyanın qabaqcıl ölkələri ilə əməkdaşlığını inkişaf etdirməklə yanaşı, güclü müdafiə sənayesi yaratmışdır və bu sərgi müdafiə sənayemizin əldə etdiyi nailiyyətlərin tanıdılması baxımından da mühüm əhəmiyyət kəsb edir.

Əminəm ki, "ADEX-2018" sərgisi faydalı təcrübə mübadiləsinin aparılmasına və yeni əməkdaşlıq əlaqələrinin yaradılmasına imkanlar açacaq, eləcə də milli müdafiə sənayemizin elmi-texnoloji potensialının artırılmasına töhfə verəcəkdir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 sentyabr 2018-ci il.*

## Azərbaycanın Müdafiə Nazirliyi ilə Müdafiə Sənayesi Nazirliyi arasında memorandum imzalanıb

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, sentyabrın 25-də Bakı Ekspo Mərkəzində keçirilən "ADEX-2018" Üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi çərçivəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə Sənayesi nazirinin müavini Yəhya Musayev Müdafiə Nazirliyi ilə Müdafiə Sənayesi Nazirliyi arasında yeni rabitə vasitələrinin təchizatına dair anlaşma memorandumu imzalayıblar.

# Prezident İlham Əliyev "ADEX-2018" Üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi ilə tanış olub

(Əvvəli 1-ci səhifədə)

İsrailin "Elbit Systems" şirkəti də sərgiyə böyük maraq göstərir və o, dünyada müdafiə, milli təhlükəsizlik və kommersiya təyinatlı silsilə proqramların hazırlanması ilə məşğul olan beynəlxalq şirkətdir. "Elbit" və onun törəmə müəssisələri aerokosmik, quru və donanma sistemləri, komanda, nəzarət, kommunikasiya, kompüter, məlumattoplama, müşahidə və kəşfiyyat, pilotsuz uçuş sistemlərinin istehsalı üzrə fəaliyyət göstərir.

Sonra Prezident İlham Əliyev Baku Ekspo Mərkəzinin daxili pavilyonlarındakı stendlərlə tanış oldu.

Qeyd edildi ki, bir sıra ölkələr əvvəlki illərlə müqayisədə milli ekspozisiyaların sahəsini böyüdüblər. Təmsil olunan şirkətlərin sayının çoxluğuna görə ilk dördlüyə Türkiyə, Rusiya, İsrail və Belarus daxildir. İştirakçıların coğrafiyası Estoniya, Hindistan və Qazaxıstan kimi ölkələrin hesabına genişlənib. Ümumilikdə, ziyarətçi şirkət və qurumlarla birlikdə sərginin coğrafiyası 44 ölkəni əhatə edir. Pavilyonlarda müasir silah və texnikalar nümayiş olunur. Bu sərgidə Türkiyə 41 şirkətlə təmsil olunur. Türkiyə şirkətlərinin ümumi təşkilatçısı olan "Müdafiə Sənayeləri Alt Katibliyi" qurumunun məqsədi özəl sahibkarlıq qismində beynəlxalq tərəfdaşlarla balanslaşdırılmış əməkdaşlığa imkan yaradan müdafiə sənayesini formalaşdırmaqdır.



Türkiyənin 30 illik təcrübəyə malik "Roketsan" şirkəti də sərgiyə məhsullarının geniş çeşidi ilə qatılıb. Şirkət həm yerli, həm də xarici istifadəçilərə özünü təcrübədə doğrultmuş etibarlı həll variantları təklif edir.

ABŞ-ın "Vertex International" şirkəti hərbi və hüquq-mühafizə sahələri üçün həll variantları, eləcə də digər sahələrlə yanaşı, müdafiə sektorunda istismar olunan məhsulların təchizatçısıdır və 200-dən çox brendi təmsil edir.

1991-ci ildən fəaliyyət göstərən Türkiyənin "STM" şirkəti sistem mühəndisliyi, texnoloji təkmilləşdirmə və logistika xidmətləri təqdim edir.

Ukrayna Müdafiə Sənayesi Təşkilatı hərbi və texniki avadanlıqların istehsalı, satışı, təmiri, modernləşdirilməsi və ixracı sahələri üzrə fəaliyyət göstərən və 100-dən çox şirkəti birləşdirən bir qurumdur. Builki sərgidə isə 7 şirkətlə təmsil olunan Ukrayna hərbi-sənaye kompleksi müxtəlif məhsullarını qonaqlara təqdim edir.

Serbiya da sərginin maraqla qarşılanan iştirakçıları arasındadır. Bu ölkədən olan "Yugoimport" şirkəti sistem inteqratoru kimi kompleks döyüş sistemlərinin işlənib hazırlanması və istehsalı üzrə ixtisaslaşıb.

Ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan "Azərsun Holdinq" də "ADEX-2018" Beynəlxalq müdafiə sərgisində iştirak edir. Ziyarətçilərin böyük marağına səbəb olan stenddə "Əsgər payı" quru ərzaq dəsti, konserv və digər qida məhsulları sərgilənir. Bundan əlavə, ziyarətçilərə hazır yeməklər təqdim olunur.

Bu il sərgidə ilk dəfə iştirak edən İtaliyanın "Leonardo" şirkəti helikopterlər, aeronavtika, elektronika, müdafiə və təhlükəsizlik sistemləri sahəsində fəaliyyət göstərir. O, ən səmərəli hərbi hazırlıq avadanlıqları, "M345" və "M346", eləcə də "C27J" seriyalı hava gəmiləri ilə döyüş təlimi üzrə lider olan bir şirkətdir.

Ukraynanın "Motor SİCH" şirkəti qaz-turbin avadanlıqlarının və helikopterlərin istehsalı, əsaslı təmiri və yenilənməsi xidmətlərini təqdim edir.

Prezident İlham Əliyev İran İslam Respublikasının pavilyonunda da oldu. Burada "Iran Electonics Industries" şirkəti, Avionika Sənayesi və Dəniz Sənayesi təşkilatları təmsil olunur.

Dövlət Sərhəd Xidmətinin 2015-ci ildə təsis edilən "Gəmi İnşası və Təmiri Mərkəzi" gəmilərin inşası, bütün növ üzən qurğuların təmiri və onlara texniki qulluq işləri ilə məşğuldur. Zavod müasir struktura və qabaqcıl tərsanəyə malikdir. Şirkət indiyədək "Şahdağ" və "Tufan" tipli çoxlu patrul gəmiləri inşa edib.



Dövlətimizin başçısı Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara baxdı. Qeyd edildi ki, nazirliyin tabeliyinə verilən müəssisələrdə qısa müddətdə yenidənqurma işləri aparılıb, son illərdə həmin müəssisələrin maşın və avadanlıq parkı yenilənib, bu məqsədlə dünyanın inkişaf etmiş ölkələrindən ən son texnoloji avadanlıqlar alınıb quraşdırılıb. Müdafiə Sənayesi Nazirliyi aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın inkişaf etmiş ölkələri ilə sıx əməkdaşlıq qurub. 2009-cu ildən başlayaraq nazirliyin müəssisələrində istehsal olunan məhsullar xaricdə keçirilən Beynəlxalq müdafiə sərgilərində də nümayiş olunur.

Müasir silah və texnikanın, habelə milli müdafiə sahəsində Azərbaycanın gücünün və qüdrətinin böyük nümayişinə çevrilən sərgidə son illərdə ölkəmizdə istehsal olunan yüngül və ağır hərbi texnikalar nümayişə çıxarılıb. Atıcı silahlarla təchiz olunan universal "Gürzə" avtomobili, müxtəlif çaplı atıcı silahlar, raket başlıqları, pilotsuz uçuş aparatları və digər hərbi texnikalar sərginin maraq doğuran eksponatları sırasındadır.

Sərginin fəal iştirakçılarından olan "Aselsan" şirkəti sifarişçilərinə hərbi rabitə vasitələri, radiolokasiya stansiyaları, radioelektron mübarizə avadanlığı, elektron və optik cihazlar, çoxfunksiyalı məlumat idarəetmə sistemi, yerüstü, hava, dəniz və kosmik tətbiqlər üçün yüksək texnologiyalı sistem variantlarını təqdim edir.

Hərbi dəniz donanması sahəsində 135 illik təcrübəyə malik olan "Damen" şirkəti istehsal etdiyi keşikçi katerlərini, patrul və döyüş gəmilərini, dəniz desantına dəstək, köməkçi dəniz və bir çox sahilyanı gəmiləri sərgi ziyarətçilərinə təqdim edir.

Dünyada hərbi sənaye kompleksinin inkişafı ilə diqqət çəkən ölkələrdən biri olan İsrail Bakıda keçirilən sərgiyə 14 şirkətlə qatılıb. Bu şirkətlər hava gəmiləri, zirehli texnika, donanma platformaları, havada və kosmosda ən son texnikanın, kibertexnologiyaların tətbiqi ilə yanaşı, müasir müdafiə sistemlərinin işlənib hazırlanması və istehsalını, o cümlədən hərbi donanma və kosmik sistemlər üçün innovativ həll variantlarını təklif edir. Bu ölkənin "Rafael Advanced Defense Systems Ltd" şirkəti bütün dünyada sifarişçilər üçün hava, quru, donanma və kosmik tətbiqlər üzrə yüksək texnoloji müdafiə sistemlərinin geniş çeşidini layihələndirir, hazırlayır və istehsal edir.

"Azərbaycan silahının təkamülü" adı altında çıxış edən Azərbaycan Hərb Tarixi Muzeyi sərgidə qədimdən müasir dövrədək ölkəmizin ərazisində mövcud olmuş dövlətlərin döyüşlərdə istifadə etdikləri texnikalar və silahlar, həmçinin geyim nümunələri də daxil olmaqla 50-dək eksponat nümayiş etdirir.



Dünyada nüfuzlu hərbi sənaye kompleksinə malik olan Rusiyanı sərgidə 26 şirkət təmsil edir. Bu ölkənin "Rosoboronexport" şirkəti qlobal silah bazarının liderlərindən biridir və Rusiyanın illik silah satışının 85 faizdən çoxunu əhatə edir.

Fransa Respublikasını təmsil edən "Naval Group" şirkəti hərbi-dəniz müdafiəsi sahəsində Avropa lideridir. Şirkət əsasən sualtı qayıqları və gəmiləri layihələndirir və inşa edir.

Dövlətimizin başçısına məlumat verildi ki, Belarusun "Belspetsvneshtechnika" şirkəti hazırda sistem inteqratoru kimi xidmət edir və bu ölkədə müdafiə sektorunun müxtəlif sənaye sahələrində ixtisaslaşmış 20-dən artıq təşkilatı bir araya gətirən Dövlət Hərbi Sənaye Komitəsinin ixtiralarından yararlanır.

Fransanın sərgidəki digər iştirakçısı isə "Thales" şirkətidir. Şirkət sərgidə hava hərəkətinin idarəolunması, hava müşahidə sistemləri, zirehli maşınlar, təlim və simulyasiya üzrə məhsul və xidmətlərini təqdim edir.

AMEA-nın Yüksək Texnologiyalar Parkı da sərgidə ilk dəfə iştirak edir. Stenddə hərb sahəsində müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiyayönümlü yeni texnologiyaların hazırlanması, işlənilməsi və təkmilləşdirilməsi məqsədilə görülən işlər nümayiş etdirilir.

Prezident İlham Əliyev Pakistan İslam Respublikasının pavilyonunda da oldu. Bildirildi ki, ölkəmizlə hərbi əməkdaşlığa malik Pakistan da bu sərgiyə hərbi sənaye məhsullarının geniş çeşidi ilə qatılıb. Bu ölkədə istehsal olunan hərbi məhsullar hərbi sənaye kompleksinin bütün istiqamətlərini əhatə edir.

Çinin "CETC International" şirkəti elektron informasiya sahəsi üçün innovativ və xüsusi həll variantları ilə sərgi ziyarətçilərinin qarşısına çıxıb. Qeyd edək ki, bu il müdafiə və xüsusi təyinatlı məhsulları, hərbi nəqliyyat vasitələrini və texnikanı, eləcə də silah və sursatları təqdim edən yerli eksponentlərin sayı artıb.

Müdafiə Sənayesi Nazirliyi, eləcə də nazirliyin nəzdindəki struktur və zavodlar, o cümlədən Müdafiə Nazirliyi və ANAMA agentliyi sərgidə fəal iştirak edir.

Ümumilikdə, sərgidə quru qoşunları və hərbi hava qüvvələrinin texnika və silahları, hərbi aviasiya silahları, Hava Hücumundan Müdafiə sistem və vasitələri, xüsusi təyinatlı əmlak və vasitələr, informasiya texnologiyaları, kosmik texnologiyalar, ordunun inzibati və texniki təchizatı ilə bağlı yeniliklər nümayiş olunur.

Beləliklə, "ADEX" sərgisi dünyanın silah bazarında ixrac üçün təklif olunan hərbi sənaye kompleksinin müxtəlif sahələri üzrə müasir müdafiə texnologiyaları, hərbi texnikanın ən son nümunələri ilə tanış olmaq imkanı yaradır. Bu sərgi ən son silah nümunələrinin nümayiş olunması və beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələrin imzalanması üçün artıq əla platformaya çevrilib.

# Prezident İlham Əliyev Bolqarıstanın Baş nazirinin müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Bolqarıstanın Baş nazirinin ictimai asayiş və təhlükəsizlik üzrə müavini, Müdafiə naziri Krasimir Karakaçanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*



AZƏRTAC xəbər verir ki, Bolqarıstanın Baş nazirinin ictimai asayiş və təhlükəsizlik üzrə müavini, Müdafiə naziri Krasimir Karakaçanov ilk dəfə Azərbaycanda 10 il bundan qabaq olduğunu qeyd edərək ötən dövr ərzində Bakıdakı çox böyük inkişafın onlarda dərin təəssürat yaratdığını deyib. Krasimir Karakaçanov bildirib ki, Azərbaycanda Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə bütün sahələrdə böyük nailiyyətlər əldə edilib və o, bu münasibətlə dövlətimizin başçısına təbriklərini çatdırıb.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev son illər Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksələrək strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğulayıb. Ölkələrimizin bir çox sahələrdə fəal əməkdaşlıq həyata keçirdiyini bildirən dövlətimizin başçısı yüksək səviyyəli səfərlərin bu işdə rolunu qeyd edib. Enerji sahəsində strateji əməkdaşlığın mövcud olduğunu deyən Prezident İlham Əliyev digər sahələrdə də əlaqələrin genişləndirilməsinin zəruriliyini bildirib.

Görüşdə "ADEX-2018" Üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisinin əhəmiyyətinə toxunulub, Krasimir Karakaçanovun bu tədbirdə iştirakı ikitərəfli münasibətlərimizin inkişafının yaxşı göstəricisi kimi dəyərləndirilib, onun Azərbaycana səfərinin əlaqələrimizin genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub.

## Azərbaycan Müdafiə Nazirliyi İran tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Hüseyn Baqeriyə və İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri general-mayor Əmir Hatəmiyə başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Müqəddəs Müdafiə həftəsi"nin başlanması münasibətilə dost İran İslam Respublikasının Xuzestan əyalətinin Əhvaz şəhərində keçirilən hərbi paradda törədilmiş xain terror aktı nəticəsində hərbi qulluqçuların və mülki şəxslərin həlak olması və xəsarət alması haqqında xəbər məni dərindən kədərləndirdi.

Biz bu dəhşətli hadisədən çox hiddətlənir, terrorizmi qətiyyətlə pisləyirik.

Həlak olanlara Allahdan rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Bütün yaralılara şəfa diləyirəm".

## Müdafiə naziri Rusiyanın Azərbaycanda yeni təyin olunan səfiri ilə görüşüb



*Sentyabrın 21-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən Müdafiə naziri ona Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb.

Müdafiə naziri Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bir çox istiqamətlərdə olduğu kimi hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində də uğurla inkişaf etdiyini vurğulayıb. Azərbaycan-Rusiya əlaqələrinin zəngin tarixə malik olduğunu deyən general-polkovnik Zakir Həsənov bunun gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliyini bildirib.

Ölkəmizdə səfir kimi fəaliyyətə başlamasından məmnun olduğunu bildirən diplomat Azərbaycan-Rusiya əlaqələrinin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini deyib.

Görüşdə regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

## Azərbaycan ilə Monteneqro arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub

*Sentyabrın 24-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov "ADEX-2018" Üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisində iştirak etmək üçün ölkəmizə səfərə gələn Monteneqro Respublikasının Müdafiə naziri Predraq Boşkoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluğun ifadə edildiyi görüşdə vurğulanıb ki, Azərbaycan ilə Monteneqro arasında bir çox istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensial mövcuddur.

Monteneqronun Müdafiə nazirinin "ADEX-2018" Üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisində iştirak etmək üçün nümayəndə heyəti ilə Bakıya səfərinin önəmini vurğulayan general-polkovnik Zakir Həsənov bunun ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın daha da inkişafına yeni təkan verəcəyini deyib.

Monteneqronun Müdafiə naziri isə öz növbəsində dövlətlərimizin əlaqələrinin möhkəm dostluq münasibətlərinə əsaslandığını, ölkəsinin Azərbaycanın vacib tərəfdaşı olduğunu deyərək bu cür görüşlərin ikitərəfli münasibətlərin, eləcə də hərbi sahədə əməkdaşlığın genişləndirilməsi baxımından zəruriliyini xüsusi qeyd edib.

Sonra tərəflər beynəlxalq və regional təhlükəsizlik məsələləri, ikitərəfli hərbi əməkdaşlığın inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparıblar.

## Müdafiə Nazirliyinin Bəyanatı

Ermənistan hərbi-siyasi rəhbərliyi qoşunların qarşıdurma xəttində vəziyyətin gərginləşdirilməsinə yönəlmiş növbəti təxribat xarakterli addım atır. İşğal olunmuş ərazilərimizdə hərbi aviasiyanın cəlb olunması ilə təlim uçuşlarının keçirilməsi barədə düşmən tərəfinin yaydığı məlumat bunun əyani sübutudur.

Müdafiə Nazirliyi bəyan edir ki, ön xətdə yerləşən bölmələrimizin mövqelərinə yaxınlaşmağa cəhd göstərən düşmənin istənilən uçuş vasitəsi tərəfimizdən dərhal neytrallaşdırılacaq və baş verə biləcək itkilərə görə məsuliyyət tamamilə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşəcək.

# Bakıda "ADEX-2018" Üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi açılıb

*Sentyabrın 25-də Bakı Ekspo Mərkəzində "ADEX-2018" Üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi açılıb. Sərginin açılış mərasimində dövlət və hökumət rəsmiləri, Azərbaycandakı diplomatik korpusun, beynəlxalq təşkilatların təmsilçiləri, xarici ölkələrin müdafiə nazirləri və digər əlaqədar qurumların nümayəndələri iştirak ediblər. AZƏRTAC xəbər verir ki, açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov Prezident İlham Əliyevin sərgi iştirakçılarına təbrik məktubunu oxuyub.*





Müdafiə Sənayesi nazirinin müavini Yəhya Musayev çıxış edərək ölkəmizdə və regionda üçüncü dəfə keçirilən Azərbaycan Beynəlxalq müdafiə sənayesi "ADEX-2018" sərgisinin açılışı münasibətilə nümayəndə heyətlərini, şirkətlərin təmsilçilərini və ziyarətçiləri təbrik edib. Diqqətə çatdırılıb ki, "ADEX-2018" Üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi regionda ən böyük silah və hərbi texnika ekspozisiyalarından biri olmaqla yanaşı, müasir silah və avadanlıqların, o cümlədən Azərbaycanın müdafiə sənayesi kompleksinin gücü və qüdrətinin nümayişidir.

Artıq ənənə halını almış "ADEX" sərgisinin böyük əhəmiyyətə malik olduğunu vurğulayan nazir müavini deyib ki, Azərbaycan Respublikası 25 ildən çoxdur ki, Ermənistanın hərbi təcavüzünə məruz qalıb, ölkəmizin ərazisinin 20 faizi zəbt edilib və bir milyondan çox əhali daimi yaşayış yerlərini tərk edərək qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Azərbaycanın üzləşdiyi hərbi təcavüz ordu quruculuğunu və Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsini prioritet istiqamətə çevirib. Bu istiqamətdə həyata keçirilən ən mühüm tədbirlərdən biri də Müdafiə Sənayesi Nazirliyinin yaradılması olub. Bu addım ölkədə Hərbi Sənaye Kompleksinin əsaslı şəkildə yenidən qurulmasına və onun müdafiə qüdrətinin möhkəmləndirilməsinə töhfəsini verib.

"Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasəti uğurla davam etdirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu və beynəlxalq hərbi-texniki əlaqələrin möhkəmləndirilməsində mühüm işlər görülüb. Dövlətimizin hərbi qüdrəti durmadan artıb və Silahlı Qüvvələrimiz regionda peşəkarlıq, təchizat və döyüş qabiliyyəti baxımından ən güclü orduya çevrilib. Hazırda Azərbaycan Ordusu beynəlxalq reytinqlərə görə dünya miqyasında 50 ən güclü ordu sırasındadır", - deyə Yəhya Musayev vurğulayıb.

Nazir müavini qeyd edib ki, bu gün ölkəmiz müasir və keyfiyyətli hərbi təyinatlı məhsulların istehsalçısı kimi dünyada tanınır. Qazanılan nailiyyətlər istehsal edilən rəqabətədavamlı məhsulları dünya bazarına çıxarılmasına şərait yaradıb. Məmulatlar Silahlı Qüvvələrimizlə yanaşı, bir sıra xarici ölkələrin ordularının da silahlanmasına qəbul edilir.

Müdafiə Sənayesi Nazirliyi indiyədək bir çox beynəlxalq sərgidə öz məhsullarını təqdim edib. Artıq üçüncü dəfədir ki, nazirliyin təşəbbüsü ilə ölkədə beynəlxalq müdafiə sərgisi keçirilir. Bu sərgi dünyanın sürətlə inkişaf edən bazarlarında strateji əməkdaşlıqların inkişaf etdirilməsi istiqamətində əlverişli platforma rolunu oynayır.

"ADEX-2018" sərgisində 29 ölkədən 224 şirkət və rəsmi nümayəndə heyətlərinin iştirak etdiyini deyən Yəhya Musayev əmin olduğunu bildirib ki, sərginin qonaqları bu müddətdə paytaxt Bakının gözəlliyi və qonaqpərvərliyi ilə tanış olmaq imkanı da əldə edəcəklər.

"2025-ci ildə keçiriləcək "Ekspo-2025" Ümumdünya Sərgisinə Bakı şəhərinin ev sahibliyi etməsi üçün namizədliyi irəli sürülüb. Bu, ölkə rəhbərliyinin beynəlxalq sərgilərə verdiyi əhəmiyyətin bariz nümunəsidir. Ümid edirəm ki, bu gün Bakıya gələn qonaqlar "Ekspo-2025" sərgisində Azərbaycanın namizədliyini dəstəkləyəcəklər", - deyə nazir müavini vurğulayıb.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

Qeyd edək ki, "ADEX-2018" sərgisində Azərbaycan, Belarus, Çin, Fransa, İsrail, Pakistan, İran, Rusiya, Serbiya, Türkiyə və Ukraynanın aparıcı şirkətləri 11 stendlə təmsil olunur. Şirkətlərin sayına görə ilk dördlüyə Türkiyə (41 şirkət), Rusiya (25 şirkət), İsrail (14 şirkət) və Belarus (10 şirkət) daxildir. İştirakçıların coğrafiyası Estoniya, Hindistan və Qazaxıstan kimi ölkələrin hesabına genişlənib. Ümumilikdə, ziyarətçi şirkət və qurumlarla birlikdə sərginin coğrafiyası 44 ölkəni əhatə edir.

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi, eləcə də nazirliyin nəzdindəki istehsalat birlikləri və zavodlar, o cümlədən Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyi (ANAMA) sərginin fəal iştirakçılarıdır.

Bundan başqa, bu il Azərbaycandan "Caspian Ship Building Company", Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, AMEA-nın Yüksək Texnologiyalar Parkı, "Vitta" elmi-texniki şirkəti və Hərbi Hava Qüvvələrinin silah və zirehli texnikaya texniki baxış üzrə servis mərkəzi sərgiyə ilk dəfə qatılır.

Sərgiyə mətbuat nümayəndələri də böyük maraq göstərir. "ADEX-2018" sərgisinə 18 ölkədən 62 aparıcı beynəlxalq və yerli xüsusi media - jurnallar, saytlar, xəbər agentlikləri informasiya dəstəyi göstərib. Sərgini işıqlandırmaq üçün 100-dən çox mətbuat nümayəndəsi akkreditasiyadan keçib.



"ADEX-2018" sərgisində Hava Hücumundan Müdafiə və Raket Əleyhinə Müdafiə sistemləri, hərbi gəmiqayırma, silah sistemlərinin hazırlanması və modernləşdirilməsi, hərbi-elmi tədqiqat, PUA sistemləri, robot-texniki kompleksləri, atıcı silahlar, döyüş sursatları və təchizatları, demilitarizasiya sistemləri, raket və artilleriya silahları, reaktiv yaylım atəşi sistemi, optik-elektron və lazer texnikası, zirehli texnika, sualtı qayıqlar və digər müasir silah, texnika və avadanlıqlar təqdim olunur.

Müdafiə Sənayesi Nazirliyinin pavilyonunda nazirliyin müəssisələrində yaradılan və istehsal olunan ən son silah və hərbi texnikalar nümayiş etdirilir. Burada iştirakçılar və ziyarətçilər Azərbaycan müdafiə sənayesinin yenilikləri, inkişaf etməkdə olan potensialı ilə yaxından tanış ola bilərlər.

Sərginin açıq meydançasında isə müxtəlif xarici şirkətlərin hərbi və xüsusi təyinatlı texnikası, maddi-texniki təchizat vasitələri, eləcə də ordunun gündəlik fəaliyyəti və hərbi qulluqçuların məişət təminatı üçün nəzərdə tutulan vasitələrdən ibarət statik ekspozisiya yerləşdirilib.

Beynəlxalq nümayəndə heyətləri və şirkətlər tərəfindən "ADEX" sərgisinə göstərilən maraq Azərbaycanın regionda mühüm strateji əhəmiyyətini bir daha təsdiqləyir.

Sərginin işgüzar proqramı çərçivəsində informativ və əyləncəli tematik tədbirlər, o cümlədən ölkənin müdafiə və təhlükəsizliyi üçün nəzərdə tutulmuş innovativ tədqiqat, məhsul və texnologiyalar sahəsində təqdimatların keçirilməsi planlaşdırılır.

Bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümü və Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi təntənəli şəkildə qeyd olunub. Azərbaycan Hərb Tarixi və Milli Azərbaycan Tarixi muzeyləri sərgidə ölkəmizin bu şanlı tarixini əks etdirən nadir silah və geyim ekspozisiyaları təqdim edirlər.

Beləliklə, "ADEX" sərgisi dünyanın silah bazarında ixrac üçün təklif olunan hərbi sənaye kompleksinin müxtəlif sahələri üzrə müasir müdafiə texnologiyaları, hərbi texnikanın ən son nümunələri ilə tanış olmaq imkanı yaradıb. Sərgi ən müasir silahların nümayiş olunması və beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələrin imzalanması üçün əla platformaya çevrilib.

# Bakıda NATO-nun ƏİK çərçivəsində özünüqiymətləndirmə təlimi keçirilib



*Bakıda NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) proqramı çərçivəsində Azərbaycan Ordusunun helikopter cütlüyünün birinci səviyyəli özünüqiymətləndirmə təlimi keçirilib.*

Təlim zamanı cütlüyün təchizatı, avadanlığı, rabitə vasitələri və digər zəruri əməliyyat imkanlarının NATO standartları və tələbləri ilə uyarlılıq səviyyəsi, sülhməramlı qüvvələr tərkibində, eləcə də müxtəlif əməliyyatlar zamanı taktiki tapşırıqların icrası qiymətləndirilib.

Cütlüyün qiymətləndirilməsi NATO-nun monitorinq qrupu və Türkiyə Respublikasının HHQ-nin mütəxəssisləri tərəfindən izlənilib.



Ön xətdən reportaj

# And yerimiz Vətəndir

*Vətən təkcə üstündə gəzdiyimiz torpaq parçası deyil. Vətən altında şəhidlərin yatdığı, üstündə igidlərin gəzdiyi, hər an azadlığı uğrunda canını və qanını əsirgəməyəcəyin diyardır. Hər kəs öz doğulduğu yeri, boya-başa çatdığı məmləkəti sevməlidir. Hər dəfə ezamiyyətə gedəndə sinələrində Vətən sevgisi yaşadan oğullarımızla tanış oluruq.*

"N" hərbi hissəsindəyik. Zabit Ceyhun Rzayevə gəlişimizin məqsədini dedikdən sonra onunla birlikdə ön xəttə yola düşürük. Yolda zabit əsgərlərimizin döyüş ruhundan söz açır. "Onların hər biri ayrı-ayrılıqda qəhrəmandır. Düşmənlə üzbəüz dayanıb, Vətəni müdafiə edirlər. Düzdür, bu hamımızın vətəndaşlıq borcudur. Torpağın çörəyini yeyiriksə, suyunu içiriksə, onu qorumağı da bacarmalıyıq. Əsgərlərimiz də dərk edirlər ki, bu Vətən bizimdir, ona görə də sevgiylə xidmət edirlər."

Zabit qeyd edir ki, düşmən atəşkəsi nə qədər pozsa da, əsgərlərimiz onlara layiqli cavab verirlər. "Düşmən vaxtaşırı atəşkəs rejimini pozmağa çalışır. Əsgərlərimiz onların bu təxribat xarakterli əməllərinin qarşısını alır, düşmənə lazım olan cavabı verirlər. Ermənilər görür ki, onların qarşısında dayanan Azərbaycan əsgəridir. Biz dünyaya qəhrəmanlar bəxş edən bir millətin nümayəndələriyik. Həmişə qorxaqlar səssizlikdən qorxar. Erməni xalqının necə qorxaq millət olduğunu tarix boyu görmüşük. Onlar havadarlarının hesabına yaşayırlar. Bizim millət isə həmişə öz dövlətinə, öz dövlət başçısına və öz ordusuna güvənir."

Söhbətimiz o qədər maraqlı keçdi ki, yolun necə bitdiyinin fərqində olmadıq. Artıq mövqedəyik. Gizir Abbasəli Ələkbərov ilk olaraq vəziyyət barədə məlumat verdi. Söhbət zamanı öyrəndim ki, onunla "N" hərbi hissəsində əsgəri xidmətdə olarkən görüşmüşük. Üstündən illər keçib və o yenidən ordu sıralarına qayıdıb. "Əsgərlik mənə bir çox vərdişlər qazandırdı. Xidmətimi başa vurub evə qayıdanda anladım ki, mən formasız qala bilmərəm. Bir müddətdən sonra hərbçi olmaq arzumu valideynlərimə bildirdim. Onlar da fikrimə hörmətlə yanaşdılar. Hətta atam alnımdan öpərək "sənin kimi oğuldan ancaq bunu gözləyə bilərdim. Get, Vətənə şərəflə xidmət et", - dedi. Artıq iki ildir ki, ordu sıralarındayam və ön xətdəyəm. Torpağı müdafiə etmək şərəfdir, ön xətdə, düşmənlə üzbəüz durmaq isə ikiqat şərəfdir. Bu cür məğrur əsgərlərlə bir yerdə olmaq gözəl hissdir. Düşünəndə ki, döyüşə bu igidlərlə birlikdə girəcəksən, qürurlanırsan."

Gizirimizlə birgə əsgər yataqxanasına daxil oluruq. Divarda asılan fotostendlər məni bir az kövrəldir. Vətən uğrunda canlarını fəda etmiş igidlərimiz - Azərbaycanın Milli Qəhrəmanı polkovnik-leytenant Murad Mirzəyev və şəhid əsgər Mahir Quliyevin şəkillərini əsgər yataqxanasında seyr etmək məni həm də qürurlandırır. Hər iki şəhidimiz aprel döyüşlərində qəhrəmancasına vuruşmuşdu. Bu gün onların adları qəlbimizdə əbədiləşib. Hər birimiz onları sevgiylə xatırlayırıq. Aprel zəfəri dedikdə ağlımıza ilk növbədə şəhidlərimiz gəlir. Çünki onların sayəsində illərdir həsrətində olduğumuz qələbə sevincini yaşadıq. Bir sıra strateji əhəmiyyətli ərazilərimizi azad etdik. Bu qələbə onların ruhunu oxşadı. Bir gün işğalda olan digər torpaqlarımızı da azad edəcəyik. Hər bir rayonumuzda üçrəngli bayrağımız dalğalanacaq.

"Vətəni sevən, Vətən yolunda canından keçən qəhrəmanlar heç vaxt unudulmur, əksinə öz xalqının qəlbində əbədi yaşayırlar", - deyən əsgər Sadiq Cəlilov sanki düşündüklərimi oxuyurmuş kimi fikirlərimə şərik oldu. "Hər gün növbəni dəyişməyə gedərkən əsgər yoldaşlarıma onların qəhrəmanlıqlarından nümunə gətirirəm. Birgə döyüşlərdə olmasaq da, hər birinin cəsarəti barədə komandirlərimizdən eşitmişik. Hamısı bir məqsəd üçün vuruşub - Vətənimizin ərazi bütövlüyü, xalqımızın dincliyi, torpaqlarımızın azadlığı uğrunda. Bu gün onların bizə əmanət qoyduğu bu torpaqları göz bəbəyimiz kimi qorumalıyıq. Onlar kimi lazım gəldikdə canımızı fəda etməliyik. Çünki and yerimiz Vətəndir."

İgidimizin düşüncələri məni qürurlandırır. Digər əsgərlərin gözləri də sanki eyni sözləri deyir...

Astara rayonundan olan əsgər Məruf Əliyev bildirir ki, araxada işıqlarımız daim yansın deyə, biz buradayıq. "Xidmətimi başa vurmağıma az qalıb. Döyüş növbətçisi çıxdığım gündən həmişə ürəyimdə özümə demişəm ki, sevdiklərimiz, xalqımız bizə arxayındır. Ona görə də bizlər həmişə ayıq-sayığıq. Qoy bizlərə inanan millətimiz həmişə yaşasın. Dünya var olduqca, dövlətimiz də var olsun."

Əsgər Əmrah Əliyev isə bildirir ki, şəhid analarımızın gözlərindən axan hər damla yaşa görə düşmən cavab verəcək. "Torpağın ağuşuna aldığı şəhidlər həmişə yaşayacaqlar. Onları xalqımız, Azərbaycan əsgəri yaşadacaq. Hər bir şəhid anası bilsin ki, onların qisası mütləq alınacaq. Qarşıda, bizim ata-baba torpaqlarımızda oturub torpaq davası edən, bizə atəş açan ermənilər bir gün gizlənmək üçün yer tapa bilməyəcəklər. Ordumuz onları məhv etməklə yanaşı, sığınacaqlarını da dağıdacaq. Bax həmin gün bizdən aman istəyəcəklər. Onda düşmənə aman verməyəcəyik. Çünki Xocalıda, Şuşada, Laçında... soydaşlarımıza işgəncə verən, dinc əhalini qıran, analarımızın gözlərini yaşlı qoyan düşmənə aman vermək olmaz."



Söhbət zamanı öyrənirəm ki, Əmrah şəhid əsgər Cabbar Zeynalovla birlikdə xidmət edib. "Cabbar həm sinif yoldaşım, həm də ən yaxın dostum idi. Uşaqlıqdan bəri xəyallar qurardıq ki, hər işimizi birlikdə görək. Elə oldu ki, eyni vaxtda xidmətə çağırıldıq. Hərbi andı qəbul etdikdən sonra xidmətimizi ön xətdə davam etdirdik. Bir gün Cabbar döyüş növbətçiliyində olarkən xain düşmən təxribata əl atdı. Atəşkəsi pozdu. Düşməni susdurarkən snayperdən atılan atəş ona tuş gəldi. Şəhid olmuşdu, amma üzündəki təbəssüm solmamışdı. Heyifsilənmirəm, əksinə sevinirəm ki, o cür qəhrəman dostum olub və onunla birlikdə xidmət etmişəm. İndi dua edirəm ki, Ali Baş Komandanımız döyüş əmri verən gün həm dostumun, həm də bütün şəhidlərimizin qisasını alacam."

Söhbətə qoşulan əsgər Nəbi Soltanov qeyd edir ki, ermənilərin həyata keçirmək istədiyi təxribatları, planları heç vaxt baş tutmayacaq. "Qarşıda gördüyünüz torpaqlar bizim tarixi torpaqlarımızdır. Bunu tarix kitabları da təsdiqləyir. Bütün dünya bilir ki, ermənilər bizim torpaqlarımızda məskunlaşmaq istəyir. Özlüyündə "Böyük Ermənistan" xülyası ilə yaşayan düşmən fərqinə varmalıdır ki, nə dövlətimiz, nə dövlət başçımız, nə xalqımız, nə də Azərbaycan əsgəri buna imkan verməyəcək. Əgər erməni əsgərləri bu planın qurbanı olmaq istəmirlərsə, geri çəkilsinlər. Çünki tez bir vaxtda Ali Baş Komandanın əmri ilə döyüşlərə atılacağıq. Onda daş üstə daş qalmayacaq."

Əsgərlər Emran Dadaşzadə və Rəşid Ağabəyov da fikirlərini bizimlə bölüşdülər. "Növbədə olarkən qarşı tərəfi ayıq-sayıq müşahidə edirik. Bir vaxtlar o evlərdə azərbaycanlı ailəsi yaşayırdı. İndi o evləri viran qoyublar, dağıdıblar. Amma bir şeyi unudublar ki, millətimiz heç nəyi unutmur. Dostunu da, düşmənini də seçə bilir. Bundan sonra dosta əl uzadacaq, düşmənə isə etdiklərinə görə layiqli cavab verəcəyik. Bir gün yenə də, həmin evlərdə azərbaycanlı ailəsi yaşayacaq. Necə ki, illərdir doğma sakinlərinə həsrət qalan Cocuq Mərcanlıda indi yaşayış var. Ali Baş Komandanımızın göstərişi ilə orada yeni evlər, məktəb, məscid və başqa obyektlər tikilib, əhalinin istifadəsinə verilib. Şuşada, Kəlbəcərdə, Xocalıda və digər tarixi torpaqlarımızda da yenidən azan səsi eşidiləcək, igidlərimiz at oynadacaq, ata-babalarımız torpağı əkib becərəcəklər."

Söhbətimizin bu yerində Dədə Qorqudun Beyrəyin oğluna verdiyi nəsihətləri xatırlayıram: "Oğul, torpağı əkib-becərməsən qorumağa dəyməz, qorumasan əkib-becərməyə".

Bizi qürurlandıran məqam odur ki, yurdumuzun qəhrəman oğulları torpağa sahib çıxmağı da, əkib-becərməyi də, qorumağı da bacarırlar.

**Baş leytenant Məhəmməd NƏSİRLİ, "Azərbaycan Ordusu", foto C.CƏFƏROVUNDUR**

# "Müxənnət" adlı filmin təqdimatı keçirildi

*Sentyabrın 21-də Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin konsert zalında Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının, Müdafiə Nazirliyinin və Milli Azərbaycan Tarixi Muzeyinin dəstəyi ilə çəkilən "Müxənnət" filminin təqdimat mərasimi keçirildi.*



Tədbiri giriş sözü ilə açan Qafqaz Tarixi Mərkəzinin direktoru Rizvan Hüseynov qonaqları salamladıqdan sonra filmlə bağlı qonaqlara qısa məlumat verdi. "Müxənnət filmi 1948-1953 və 1988-1989-cu illərdə azərbaycanlıların tarixən Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisindən deportasiya olunmalarını əks etdirir."

Rizvan Hüseynov filmin nə üçün Müxənnət adlandırılması ilə bağlı fikrini bildirdi: "Tarixən erməni millətçiləri bizim xalqa qarşı müxənnət (satqın, xain) olmuşlar. Qədim torpaqlarımızda məskunlaşmaqları az deyilmiş kimi, həmyerlilərimizə qarşı hər zaman zorakı siyasət yürüdüblər. Həmin siyasətin nəticəsində ermənilər azərbaycanlıların yaşadıqları evlərə basqın edərək onları yurdlarından zorla qovublar. SSRİ rəhbərliyində oturan ermənilər və ermənipərəst qüvvələrin apardığı cinayətkar siyasətin nəticəsində xeyli sayda insan repressiya qurbanı olub".

Film başa çatdıqdan sonra çıxış üçün söz alan istefada olan general-mayor Kamil Məmmədov deportasiya dövrünü belə xatırladı. "1988-1989-cu illərdə erməni quldur dəstələri azərbaycanlıların evlərinə basqın edir və onlardan evlərini tərk etmələrini tələb edirdilər. Həmvətənlərimizə qarşı törədilən psixoloji terror, getdikcə fiziki terrora çevrilməyə başladı. Azərbaycanlılar fiziki təzyiqlərə məruz qalır, evləri yandırılırdı. Bir sözlə, vəziyyət dözülməz hal alırdı. Tarixən bizim olan torpaqlar zor gücü ilə "erməniləşdirilirdi". 1988-1989-cu illərdə 220 mindən çox azərbaycanlı verilən zülümlərə dözməyərək öz doğma yurdlarından didərgin düşdü."

Deportasiyaya məruz qalmış Adilə Əmirəliyeva o günlərdən danışdı. "İnsan ömrünün elə anları olur ki, onları xatirələrdən silmək çox çətindir. Deportasiyaya məruz qaldığımız günlər filmin vasitəsilə yenidən göz önümdə canlandı. 1988-1989-cu illərdə iki dəfə deportasiyaya məruz qalmışıq. İlk dəfə Mehridən, ikinci dəfə isə Stepanakertdən zorla qovulmuşuq. Bu gün torpaqlarımız erməni vandallarının tapdağındadır. Gün gələcək ədalət bərpa olunacaq, o tarixi torpaqlarda yenə həmvətənlərimiz yaşayacaq. İnanırıq ki, son iki əsrdə xalqımızın başına gətirilən müsibətlərin cavabını Azərbaycan Ordusu artıqlamasıyla verəcək".

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin nümayəndəsi, dövlət qulluqçusu Zümrüd Səmədova da filmi çox böyük maraqla izlədiyini bildirdi. "Müasir dövrdə tarix kitablarında əks olunan məlumatları film şəklində izləmək çox təqdirəlayiq haldır. Tarixi görüntü şəklində izləmək onu daha yaddaqalan edir. Dinc insanların öz ata-baba yurdlarından didərgin salınmasına heç bir halda göz yumulmamalıdır. Azərbaycan Ordusu bu gün çox qısa müddətdə öz torpaqlarını azad etmək gücündədir".

İnnovativ Təşəbbüslər İctimai birliyinin sədri Əşrəf Əhmədov tədbirin baş tutduğu günün Beynəlxalq Sülh günü ilə eyni vaxta təsadüf etdiyindən həm filmlə bağlı təəssüratlarını bölüşdü, həm də bu günün özəlliyindən bəhs etdi. "Bu gün 21 sentyabr Beynəlxalq Sülh Günüdür. Ermənistan öz zorakı siyasətini qədim dövrlərdən bu günümüzə qədər davam etdirir. Azərbaycan hər zaman sülh istəyən ölkə olub. Bu gün "Müxənnət" filmində biz həmyerlilərimizə və torpaqlarımıza məkrli niyyəti olan ermənilərin iç üzünü bir daha gördük və bunu bütün dünyaya çatdırmalıyıq".

Sonda Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi polkovnik-leytenant Zöhrab İmamquliyevin rəhbərliyi ilə hazırlanmış kompozisiyaları qonaqlara təqdim edildi.

**Leytenant
Fuad CƏFƏROV,
"Azərbaycan Ordusu"**

# "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"

Naxçıvan Qarnizonu qoşunlarında keçirilən növbəti komanda-qərargah təlimi uğurla başa çatdı, qarşıya qoyulmuş məqsədlərə nail olundu. Təlimdə Əlahiddə Ümumqoşun Ordunun "Tam müdafiə" döyüşə hazırolma dərəcəsinə gətirilməsi, birinci eşelon birləşmələri tərəfindən düşmənin qəfil hücumlarının və diversiya-kəşfiyyat fəaliyyətlərinin qarşısının alınması, ehtiyat birləşmə və hissələrin "Həyəcan" siqnalı ilə döyüş təyinatlı rayonlara çıxarılması, müdafiə əməliyyatına hazırlıq və müdafiənin aparılması mövzuları işləndi. Praktiki fəaliyyətə cəlb olunan birləşmə və hissələr təlim ərazisində döyüş atışlarını yerinə yetirdilər.

* * *

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində ehtiyat zabit hazırlığı kursunu bitirərək ehtiyata buraxılmış zabitlərə vəsiqələr təqdim edildi.

Tədbirdə Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev çıxış edərək bildirdi ki, ümummilli lider Heydər Əliyevin hərbi elmi əsaslarla yaratdığı Azərbaycan Ordusu bu gün Cənubi Qafqazın ən güclü, peşəkar ordusuna çevrilib. Ümummilli Liderimizin əsasını qoyduğu ordu quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və bu məqsədyönlü iş Naxçıvan Muxtar Respublikasında da qətiyyətlə aparılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin qayğısı ilə ordu, birləşmə və hissələr mühüm təşkilatlanma yolu keçərək hər keçən gün daha da güclənir. Keçirilən təlimlərdə peşəkarlığı artan hərbi qulluqçularımız ən çətin döyüş tapşırığının öhdəsindən layiqincə gəlirlər. Son dövrlər hərbi xidmətə marağı artan gənclərimiz hazırlıq kurslarında iştirak edərək peşəkar hərbçi kimi yetişirlər. Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində yeddincisi təşkil edilmiş ehtiyat zabit hazırlığı kursunda 163 nəfər iştirak etdi. Onlardan 32 nəfəri kursu bitirdikdən sonra ordu sıralarında xidmətini davam etdirib, 131 nəfəri isə ehtiyata buraxılıb. Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tapşırığına əsasən ehtiyatda olan zabitlərə vəsiqələri təqdim edilir.

* * *

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsində əsgərlər qarşısında növbəti konsert proqramı ilə çıxış etdi. Şəxsi heyətin mədəni-asudə vaxtının səmərəli təşkili və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi məqsədilə keçirilən tədbirdə hərbi hissənin bədii özfəaliyyət kollektivi də fəal iştirak etdi.

* * *

Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçular arasında futbol birinciliyinə start verildi. "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan birincilikdə 17 komanda mübarizə aparır. Əlahiddə Ümumqoşun Ordu Komandanlığının təşkil etdiyi və Olimpiya sistemi ilə keçirilən birincilikdə ədaləti qoruyanlar Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının hakimləridir.

**Leytenant
Nəriman NƏCƏFOV,
Naxçıvan**

# Gənc əsgərlərlə milli-mənəvi dəyərlərimiz ilə bağlı söhbətlər aparılıb



Müdafiə Nazirliyinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələri tərəfindən hərbi hissələrdə gənc əsgərlərlə "Dini radikalizmlə mübarizə və milli-mənəvi dəyərlərimiz" mövzusunda söhbətlər aparılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşlərdə vurğulanıb ki, Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan Ordusunun şəxsi heyətinin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinə xüsusi önəm verir və bu istiqamətdə məqsədyönlü işlər aparır.

# "Ən yaxşı tank bölüyü" adı uğrunda yarışlara start verilib

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunda "Ən yaxşı tank bölüyü" adı uğrunda yarışlar başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yarışın keçirilməsində əsas məqsəd şəxsi heyətin döyüş vərdişlərinin təkmilləşdirilməsi və peşəkarlığının artırılmasıdır.

Nəticələrin dəqiq hesablanıb qiymətləndirilməsi məqsədilə yaradılan komissiya yarışlara cəlb olunan heyətlərin taktiki və fiziki hazırlığı, atış və sürücülük bacarığı üzrə məqbulları qəbul edəcək.

Sonda ümumi nəticələr hesablanaraq "Ən yaxşı tank bölüyü" adı uğrunda keçirilən yarışın qalibləri mükafatlandırılacaq.



# Veteranlar ictimai-siyasi proseslərdə və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində fəal iştirak edirlər

*Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov və təşkilatın sədr müavini polkovnik Cəlil Xəlilov Şəki şəhərində Şəki və ətraf rayonların veteran təşkilatlarının nümayəndələri ilə görüş keçiriblər.*




Respublika Veteranlar Təşkilatından AZƏRTAC-a bildiriblər ki, müharibə, əmək veteranlarının, ziyalıların və yerli dövlət orqanlarının nümayəndələrinin iştirak etdikləri görüşdə veteran təşkilatlarının fəaliyyəti, onların qarşısında duran vəzifələr və yerli icra hakimiyyəti orqanları ilə birgə işin daha da səmərəli təşkilində bu təşkilatlara lazımi köməkliyin göstərilməsi və sair məsələlər müzakirə edilib.

Şəki şəhər Veteranlar Təşkilatının sədri Mustafa Əhmədov tədbirdə çıxış edərək görülən işlər, veteran təşkilatının fəaliyyətinin daha da canlandırılması, xüsusilə gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi sahəsində qarşıda duran vəzifələr, digər planlar barəsində ətraflı məlumat verib. Qeyd edib ki, ölkəmizin hər yerində olduğu kimi, Şəkidə də veteranlara dövlət tərəfindən diqqət və qayğı göstərilir. Şəki şəhər Veteranlar Təşkilatında yaradılmış şərait yüksək səviyyədədir. Veteranlar ictimai-siyasi proseslərdə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində fəal iştirak edirlər. Onlar daim xalqımıza, dövlətimizə sadiqdir və bunu əməlləri ilə göstərir və hər zaman göstərəcəklər.

Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov veteranların qarşısında duran vəzifələrdən və gənc nəslin vətənpərvərlik tərbiyəsində onların daha yaxından iştirak etmələrinə dair tövsiyələrini verib.

Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov ölkəmizdə müasir, güclü ordunun qurulması, eləcə də Respublika Veteranlar Təşkilatının ölkə həyatında yaxından iştirakı barədə məlumat verib. O, Şəkinin, eləcə də ətraf rayonların ziyalı və veteranlarının bu işlərdə rolunu yüksək qiymətləndirib.

Çıxış edən veteran və ziyalılar bundan sonra da veteran hərəkatının gücləndirilməsi üçün səy göstərəcəklərinə əminliklərini bildiriblər.

Sonra Tofiq Ağahüseynov və təşkilatın sədr müavini Şəkinin qəhrəmanlıq simvolu sayılan Əhmədiyyə Cəbrayılovun və oğlu Mikayıl Cəbrayılovun yaşadıqları ev-muzeyinə gələrək onların həyat və fəaliyyətlərini əks etdirən eksponatlarla tanış ediliblər. Bu insanların gənc nəslə nümunə olan qəhrəmanlıqlarının tanıdılması üçün lazımi tədbirlərin həyata keçirilməsinin zəruriliyi vurğulanıb.

Səfər çərçivəsində Şəki şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubovla veteranların görüşü də keçirilib. Elxan Usubov veteranlara diqqət və qayğı göstərilməsinin, onların sosial problemlərinin həllinin qarşıda duran əsas vəzifələrdən biri kimi səciyyələndirib. Veteranların gənclərin tərbiyəsində, ümumən rayonun ictimai-siyasi həyatında yaxından iştirakına xüsusi önəm verildiyini bildirib. Tofiq Ağahüseynov Şəkinin veteran hərəkatında ən qabaqcıl rayonlardan biri olduğunu diqqətə çatdırıb. Şəhər Veteranlar Təşkilatının dövlət və yerli orqanlarla əməkdaşlığının gələcəkdə daha yüksək səviyyəyə qaldırılacağına inamını ifadə edib və veteranlara göstərilən diqqət və qayğıya görə təşəkkürünü bildirib.

*Əsgər məktubu*

# "Azərbaycan Respublikasına xidmət edirəm!"



Salam ata, necəsən? Bu gün sevincimin həddi-hüdudu yoxdu. Hisslərimi bu məktub vasitəsilə səninlə bölüşmək istəyirəm. Həyəcan, sevinc, qürur qarışıq duyğular keçirirəm. Bunları qələmə almağa heç kağız da yetməz. O qədər sevincli və qürurluyam ki, əlim qələm tutmur. Bu gün Müdafiə nazirimiz general-polkovnik Zakir Həsənov bizimlə görüşə gəlmişdi. Komandirimizin əmri ilə sıraya düzüldük. Müdafiə naziri ilə görüşəcəyim üçün həm çox həyəcanlı, həm də qürurlu idim. Özümü təqdim etdim. Əlimi sıxıb uğurlu xidmətimə görə mənə Ali Baş Komandan adından qol saatı hədiyyə etdi. Ürəyim elə sürətlə və həyəcanla döyünürdü ki, döyüntülərin səsini eşidirdim sanki. Uca səslə "Azərbaycan Respublikasına xidmət edirəm!", - dedim. Bir əsgər üçün Müdafiə naziri tərəfindən təltif olunmaq ən qürurverici haldır. Qürurdan sinəm qabardı, ele bildim qəlbim qanadlanıb uçacaq həmin dəqiqə. Ata, bilirsən ki, uşaqlıqdan ən böyük arzum əsgər olmaq idi. Əsgəri xidmətə gəldiyim ilk gündən hərbi biliklərə dərindən yiyələnməyə, silahımın xüsusiyyətlərini, ondan bacarıqla istifadə etməyi mənimsəməyə səy göstərdim. Daim verilən tapşırıqları dəqiq yerinə yetirdim, vəzifələrimin öhdəsindən məsuliyyətlə gəldim ki, ordumuzun adına layiq əsgər olum. Çünki şanlı ordumuzda xidmət etmək hər bir gənc üçün Vətən qarşısında övladlıq borcudur. Bu borcun öhdəsindən layiqincə gəlmək üçün hər zaman var qüvvəmlə xidmət etmişəm və bu gün uğurlu xidmətimə görə Müdafiə naziri məni təltif edəndə çox qürurlandım, sevincdən gözlərim doldu.

Ata, indi yanımda olub boynumu qucaqlayıb, "oğlum, səninlə fəxr edirəm" deməyini istəyərdim. Əminəm ki, məktubumu oxuduqca sən də fərəhlənirsən. Sənin ən böyük arzun idi, məni şanlı ordumuzun sıralarında əsgər kimi görmək. Yadındadır, andiçmə günümdə mənə demişdin ki, "Vətən bizim qibləgahımız, sığınacağımız, anamızdı. Bu gün sən Vətəni qorumağa gedirsən. Bu müqəddəs vəzifənin öhdəsindən layiqincə gəlsən səninlə bir ömür fəxr edərəm, bir valideyn kimi mən də sevinərəm ki, Vətənimizə xeyirli övlad böyütmüşəm". Ata, sən də, anam da indi qürurlana bilərsiniz, oğlunuz ana Vətənini göz bəbəyi kimi qoruyur, nümunəvi xidmətinə görə təltif olunub.

Ata, Müdafiə naziri ilə görüşümüz çox maraqlı oldu. Bizimlə səmimi söhbət etdi, qayğılarımızla maraqlandı. Yeməklərimizin keyfiyyətini və dadını yoxladı, məişət şəraitimizlə tanış oldu. Mənə saatı təqdim edəndə dedi ki, "ordu sıralarından tərxis olsan belə bu saatı qolundan çıxartma. Hər baxanda məni, ordumuzu xatırla, işğal altında olan torpaqlarımızın azad olunması uğrunda döyüşə atılmaq üçün ordu sıralarına qayıtmağa hər an hazır ol". Bu gün dövlətimizlə, ordumuzla, Ali Baş Komandanımızla bir daha fəxr etdim, ata. Bir əsgər kimi Müdafiə nazirimizlə bir daha qürur duydum, qətiyyətli sözlərindən güc aldım. Bütün xalqımız əmin ola bilər ki, belə vətənpərvər, qayğıkeş, diqqətcil nazirimizin rəhbərliyi ilə ordumuzun qarşısında heç bir düşmən tab gətirə bilməz. Tezliklə sizlərə zəfər bayramını yaşadacağımızdan əmin olun. Onda da sənə Böyük Qələbə məktubunu yazacam. Özünüzə yaxşı baxın, Allah amanında.

**Əsgər**
**İzzət NƏCƏFZADƏ,**
**"N" hərbi hissəsi**



# "Ən yaxşı təşviqat işinin təşkili" müsabiqəsi başa çatıb

Əyani təşviqat vasitələri və divar mətbuatı mahiyyət etibarilə hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığında xüsusi rol oynayır. Ona görə də ordumuzda ideoloji otaqlar bu amil nəzərə alınaraq tərtib olunur. Bu otaqlarda Azərbaycan dövlətinin rəmzləri, tarixi, ümummilli liderimiz Heydər Əliyevin dövlət və ordu quruculuğu sahəsində fəaliyyəti, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələr qarşısında qoyduğu vəzifələr və ordu haqqında fikirləri, Azərbaycan Respublikası Müdafiə nazirinin ordunun şəxsi heyətinə tövsiyələri, tapşırıqları öz əksini tapır.

İdeoloji otaqlarda hərb elminin nəzəri əsaslarının öyrədilməsi və əsgərlərin asudə vaxtının səmərəli təşkili üçün gərəkli şərait yaradılıb, müxtəlif məlumat stendləri yerləşdirilib.

Azərbaycan Ordusunun 2018-ci ilin hazırlıq planına əsasən, "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında "Ən yaxşı təşviqat işinin təşkili" adı altında müsabiqə keçirilib. Müsabiqədə ideoloji otaqların, səyyar ideoloji məntəqə və ideoloji guşələrin təşkili uğrunda yarışlar keçirilib. Belə tədbirlər Silahlı Qüvvələr və qoşun növləri, birlik, birləşmə və əlahiddə hərbi hissələrdə, xüsusi təyinatlı təhsil müəssisələrində şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə xidmət edir. Eyni zamanda təşviqat işinin təkmilləşdirilməsi, bu sahədə əldə edilmiş nailiyyətlərin təbliğ edilməsi, bölmələr arasında yarış ruhunun və rəqabətin gücləndirilməsi məqsədi daşıyır.

Müsabiqəyə qoşun növləri, birlik, birləşmə və əlahiddə hərbi hissələrdən, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrinin hər birindən ən yaxşı təşviqat işinin təşkili üzrə hərbi hissə və müəssisə təqdim olunub.

Fərqlənən hərbi hissələrin şəxsi heyətlə iş üzrə komandir müavinləri müsabiqənin nəticələrinə görə həvəsləndiriliblər.

Müsabiqədə birinci yerə layiq görülən "N" hərbi hissənin şəxsi heyətlə iş üzrə komandir müavini polkovnik-leytenant Rüstəm Məmmədova fəxri fərman, ikinci və üçüncü yerin sahibləri şəxsi heyətlə iş üzrə komandir müavinləri - mayor Fuad Məmmədova və mayor Rahib Vəzirova isə təşəkkür məktubu təqdim olunub.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi "Ehtiyat zabit hazırlığı kursu"na namizədlərin qəbulunu elan edir

Müdafiə Nazirliyinin hərbi hissələrinə zabitlərin həqiqi hərbi xidmətinə könüllü daxil olmaq arzusunda olan, müddətli həqiqi hərbi xidmətini başa vurmuş, ali təhsilli, 28 yaşınadək vətəndaşlar oktyabrın 1-dən 22-dək müvafiq sənədlərlə birlikdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində (SQ TTM) fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər.



"Ehtiyat zabit hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə Müdafiə Nazirliyinin Hərbi Həkim Komissiyasına göndərilir və komissiyanın qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılırlar.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq, liderlik və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər kursa qəbul edilirlər.

Kursu müvəffəqiyyətlə başa vuran kursantlara leytenant hərbi rütbəsi verilməklə zabitlərin həqiqi hərbi xidmətinə qəbul olunmaları barədə bağlaşma bağlanır və ixtisaslarına uyğun vəzifələrə təyin olunurlar.

Namizədlər SQ TTM-də fəaliyyət göstərən qəbul komissiyasına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə - 1 nüsxədə və çap edilmiş - 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- ali təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- xarici dövlətlərdə təhsil almış namizədlər üçün, ali təhsil haqqında sənədin notarial qaydada tərcümə və təsdiq edilmiş surəti ilə yanaşı, həmin sənədə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti;
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 2 nüsxədə;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda) - 2 nüsxədə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 2 nüsxədə;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4.5x6 sm ölçüdə);
- psixoloji, nevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması barədə arayışlar;
- qeydiyyatda olduğu poliklinikadan sağlamlıq haqqında arayış;
- qeydiyyatda olduğu poliklinikadan son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi haqqında arayış;
- hərbi biletin surəti (notarial qaydada təsdiq olunmuş) - 2 nüsxədə.

**Ünvan:** Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzi)

**Telefon:** (012) 538-85-62

**Müraciət etmə vaxtı:** 2018-ci il oktyabrın 1-dən 22-dək hər gün (bazar günü istisna olmaqla) saat 09.00-dan 17.00-dək.

**Qeyd: Məhkumluğu olan hərbi vəzifəlilərin "Ehtiyat zabit hazırlığı kursu"na qəbul üçün müraciət etməmələri xahiş olunur.**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Hərbi topoqrafların konfransı keçirilib

Azərbaycan Ordusunun 2018-ci il üçün hazırlıq planına əsasən, Müdafiə Nazirliyinin Əməliyyat Baş İdarəsi Naviqasiya və Kartoqrafiya İdarəsində müxtəlif qoşun növü zabitlərinin iştirakı ilə "Xüsusi topoqrafik xəritələrin hazırlanmasında müasir texnologiyanın tətbiqi" mövzusunda konfrans keçirilib.

Tədbirdə iştirakçılara Azərbaycan Ordusunun silahlanmasına qəbul edilən müasir silah və hərbi texnikanın idarəetmə sistemlərində istifadəsi üçün nəzərdə tutulan xüsusi topoqrafik xəritələrin, fotosənədlərin, ərazi maketləri və planların hazırlanması zamanı tətbiq olunan müasir texnologiya və proqram təminatları haqqında ətraflı məlumat verilib. Həmçinin bu proqramların tətbiqi ilə hazırlanan xüsusi topoqrafik xəritələr, üçölçülü ərazi maketləri və fotosənədlər nümayiş etdirilib.

## Azərbaycan və Ermənistan dövlət sərhədində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 26-da Azərbaycan və Ermənistan dövlət sərhədinin Gədəbəy rayonu istiqamətində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçirəcəklər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika və Mixail Olaru keçirəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**_25 sentyabr 2018-ci il._** Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 82 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Ayqeovit kəndində yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara, Qızılhacılı və Bala Cəfərli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Qaraqaşlı, Sarıcalı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Mərkəzi Ordu İdman Klubu və Beynəlxalq Cüdo Federasiyasının nümayəndələri arasında görüş keçirilib

_24 sentyabr tarixində Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Mərkəzi Ordu İdman Klubunun (MOİK) rəisi polkovnik-leytenant Rəşad Quliyev ilə Beynəlxalq Cüdo Federasiyasının nümayəndəsi Stefan Marginean arasında görüş keçirilib._

Görüş zamanı hərbi təhsil müəssisələrində və hərbi hissələrdə cüdo idman növünün tədris proqramına daxil edilməsi və tədris materialları ilə təmin olunması haqqında müzakirələr aparılıb. Müzakirələrdə birgə əməkdaşlığın əhəmiyyəti vurğulanıb və hər iki tərəf üçün müsbət nəticələr əldə olunacağı bildirilib.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda futbol birinciliyi keçirilir



_Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Azərbaycan Ordusu üzrə keçirilən futbol birinciliyinə start verilib._

Yarış iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq Ulu Öndərin və şəhidlərin xatirəsini yad ediblər.

Yarışı açıq elan edən Müdafiə Nazirliyinin Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin zabiti polkovnik Sadiq Paşayev son illər ölkəmizdə idmanın inkişafına göstərilən qayğıdan danışaraq bildirib ki, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən ölkəmizdə idmanın inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir və Azərbaycan dünyada idman ölkəsi kimi tanınır.

Ordu idmançıları da uğur və qələbələri ilə bir çox beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edirlər.

AFFA-nın hakimlər komitəsi üzvlərinin idarə etdiyi futbol birinciliyində qoşun növləri, hərbi hissə və birləşmələrdən 13 komanda iştirak edir. Yekunda yarışın qaliblərinə fəxri fərmanlar, mükafatlar, qalib komandaya isə kubok təqdim olunacaq.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 754
Nüsxə 3525